Elm və İnnovativ Texnologiyalar Jurnalı Nömrə 17, 2021. 84-93
DOI: 10.30546/2616-4418.17.2021.84

# WALDORF PEDAQOGİKASINDA ŞƏXSİYYƏTİN İNKİŞAFI

**Kəmalə QƏHRƏMANOVA** [1]
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*

**Hüryal KƏRƏMOVA**[2]
*Bakı Dövlət Universiteti, Bakı, Azərbaycan*

## Giriş

Pedaqoji fikir tarixində uşaqların təlim-tərbiyəsi və inkişafı ilə bağlı müxtəlif nəzəriyyələr və pedaqoji cərəyanlar mövcud olmuşdur. Waldorf pedaqogikası da bu nəzəriyyələrdən biridir. Waldorf təhsili müstəqil və bir o qədər də əhatəlidir. Waldorf təhsil sistemi Avstriyalı filosof, islahatçı Rudolf Steiner tərəfindən keçən əsrdə irəli sürülən , dünya miqyasında müstəqil bir pedaqoji sistemdir. Waldorf təhsili dünya üzrə yayılmaqda olan ən böyük və geniş pedaqoji cərəyanlardan biridir. Heç bir dövlət , təşkilati struktur, özəl müəssisələr və şəxslər tərəfindən idarə edilməyən , hərhansı bir ticari maraqları olmayan təhsil formasıdır.

Waldorf məktəblərində irqindən, cinsindən, dilindən, dinindən,sosial statusundan asılı olmayaraq bütün uşaqlar birlikdə təhsil alır və birlikdə yaşamağı öyrənir.Bu məktəblərin vacib özəlliklərindən biri budur ki, uşaqların hər cür

[1] kamala.qahraman@yahoo.com
[2] Hkeremova99@gmail.com



© 2021 The Authors. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution License.

inkişafını dəstəkləyir, məntiqi və tənqidi düşüncəyə malik, müstəqil hərəkət edən , müstəqil qərarlar alan, həyati bacarıqlara yiyələnmiş, gələcəyin çətinliklərinə hazır , ömürboyu öyrənmə hissi aşılanmış şəxsiyyətlər yetişdirir. Sadəcə bilik əldə etmək deyil, bu biliklərdən necə istifadə etmək lazım olduğu diqqət mərkəzindədir. Əsas sual isə belədir- uşaq nəyi bilməli və bacarmalıdır? Uşaqda ən vacib bacarıqlardan biri kommunikativ bacarıqdır. O, öz valideynləri ilə , yoldaşları ilə , müəllimləri ilə müstəqil ünsiyyət qurmağı və özünü rahat ifadə etməyi bacarmalıdır. Digər bacarıqlara gəldikdə isə bunlara sosiallaşma, komanda ilə birgə işləmə bacarığı, problem həll etmə qabiliyyəti, sadə fiziki ehtiyaclarını qarşılama bacarığı və s. misal göstərə bilərik.

Dünyanın ən böyük təhsil sistemlərindən birinin Avstriyalı düşünür Rudolf Steinerə varlığı var. Din, iqtisadiyyat və elm mövzusunda bir çox kitab və mühazirənin fəlsəfəsi və müəllifi, antroposofiya ("antropos" - kişi, "sophia" - hikmət) yaratmışdır - məqsədi xüsusi yanaşmalar və təlimlər vasitəsilə bir insanın yuxu qabiliyyətlərini aşkar etməkdir.

Waldorf pedaqogikasının və məktəblərinin qurucusu Avstriyalı elm adamı, filosof, yazıçı Rudolf Steinerdir, eyni zamanda, o, elmə antroposofiya anlayışını da gətirərək öz mənəvi fəlsəfəsini “insanın müdrikliyi” mənasına gələn antroposofiya adlandırmışdır. Rudolf Steiner 1861-ci il 27 fevral Avstriya imperiyasının Macarıstan krallığında dünyaya gəlmiş, 1925-ci il 30 mart tarixində İsveçrədə vəfat etmişdir. Rudolf Steiner 64 illik həyat və yaradıcılığında 30 kitab və 6000 üzəri konferansın müəllifliyinə imza atmışdır.Həmçinin bunlarla yanaşı,o, pedaqogika və fəlsəfəyə “ruh psixikası“ və ya “ruh və elm” adlandırdığı yeni bir yanaşma gətirdi. Bu psixoloji yanaşma inasanları azad, önyargısız düşünməyə səsləyən modern və universal bir fəlsəfə idi. Rudolf Steiner insan ruhu, insan və kainatın inkişafı ilə bağlı bir çox fəlsəfi araşdırmalar aparmışdır. Onun maraq dairəsinə metafizika, epistomologiya, elmi psixologiya, ezoterizm, həmçinin xaçpərəstlik də daxil olmuşdur.

Rudolf Steiner fəlsəfəsinin əsas məqsədi ruh və elm arasındakı sintezi müəyyən etmək idi. O, insanı ali və azad varlıq kimi görür, idrak prosesini isə yüksək qiymətləndirirdi və bildirirdi ki, idrak kainat adlı orqanizmin ən mükəmməl orqanıdır. Rudolf Steiner insanın xəyal dünyasının sərhədiz olduğunu qəbul etmirdi və o deyirdi ki “Bütün biliyimiz təxəyyülümüz qədərdir”. Bu yanaşma Waldorf məktəblərinin fəaliyyətinə öz təsirini yetərincə göstərmişdir.

Waldorf məktəbi ilk dəfə 1919-cu ildə Almaniyada yaradılmış, daha sonra isə dünyanın bir çox ölkələrində yayılmış və fəaliyyət göstərmişdir. Bu hadisə bu şəhərdə "Waldorf-Astoria" siqaret zavodunun sahibi olan Emil Moltanın xahişi ilə dəstəkləndi. O vaxtdan etibarən Waldorf adı yalnız məktəb adını ifadə etmir, eyni zamanda ticarət nişanıdır.

Hal-hazırda Almaniya, Avstriya, İsveçrə, İngiltərə və Norveç kimi ölkələr də daxil olmaqla təxminən 80 ölkədə Waldorf təhsil sistemi ilə fəaliyyət göstərən bağçalar, məktəblər hətta universitetlər mövcuddur. Cənubi Amerika ölkələrindən Gürcüstan və Moldoviyaya, Şimali Koreya və Qırğızıstandan Çin və İrana qədər uzanan coğrafiyada bu təhsil sistemi geniş yayılmışdır. Avropada Waldorf məktəbləri olan ölkələrə sadəcə Yunanıstan və Türkiyə daxil deyil. Çox təəssüf hissi ilə bildirirəm ki, Azərbaycanda da Waldorf təhsili tətbiq edilmir.

**Waldorf təhsilində uşaq şəxsiyyətinə münasibət**

Waldorf təhsilində uşağa fiziki, ruhi və zehni olaraq bir bütün kimi yanaşılır . Uşaqların bir şəxsiyyət olaraq formalaşması və inkişaf yolu yeddi illik dövrlərə bölünür və ilk yeddi ilin, yəni ilk dövrün insanın bütün həyatını müəyyən etdiyinə inanılır. Uşağın təlim yaşı təqvimə görə deyil, onun əqli, fiziki, psixoloji yaşına və sağlamlığına görə müəyyən edilməlidir. Ən önəmli məsələ isə şəxsiyyətin düzgün inkaşafına diqqət edilməsidir. Bu məsələyə bir Afrika atalar sözü (otları dartdiqda daha tez uzanmır) deviz olaraq götürülərərək yanaşılır və hərşeyi öz zamanında etmək lazım olduğu bildirilir. Waldorf pedaqogikası əzbərçiliyə və məcburiyyətə tamamilə tənqidi mövqedə durur, bunu təbii metodlarlar vasitəsilə ritmi yolla gündəlik həyatın öyrədilməsi ilə əvəzləyir.Uşaqlaın oxumaqdan öncə yazmağı öyrənmələrinin daha vacib olduğunu , eyni zamanda yeddi yaşından öncə oxumağı öyrənməyin o qədər də önəmli olmadığını vurğulayırlar.Bunun əvəzinə isə bu dönəmdə xarici dillərin öyrədilməsinə üstünlük verilir. Uşaqlara azad bir şəxsiyyət olaraq yanaşmaq , onlara xəyal dünyasını, öyrənmə bacarıqlarını və yaradıcılıq qabiliyyətlərini kəşf etməyə tam dəstək olmaq azımdır. Bu dönəmdə uşaqlar gördükləri , eşitdikləri hərşeyi təqlid edirlər və öz hafizələrində saxlayırlar, hislər və duyğu üzvləri vasitəsilə oyrənmə tədricən məntiqi öyrənməyə çevrilir Müəllimin rolu əsl qayğıkeş dəstəkçi olmaq, müsbət emosional mühit yaratmaq , uşağa öz şəxsiyyətini dərk etməkdə köməklik göstərməkdir. ‘ Insanın öz davranış qaydalarını dərk etməsi, azadlığını dərk etməsi deməkdir.”- R.Steiner

Waldorf ritmlər üzərinə qurulmuş bir fəlsəfədir., hərşeyin bir ritmi və ahəngi var, önəmli olan bu harmoniyanı düzgün tutmaqdır. Harmoniya üçün isə təbii ki, melodiyalar və musiqilər önəmlidir. Bu məktəblərdə uşaqlar dərsə digərlərindən fərqli olaraq səhər musiqisi və rəqs ilə başlayırlar. Bu onların zehni və fiziki oyaqlığını , gün boyu daha aktiv hərəkət etmələrini , eyni zamanda günə daha motivasiyalı başlamalrını təmin edir. Həmçinin, uşaqlar mahnı oxuyaraq öz hislərini daha rahat ifadə edə bilirlər. Ən önəmli məsələlərdən biri isə toxunma duyğusuna çox diqqət yetirilməsidir. Uşaqlar əşyalara toxunaraq onları qavrayır , eyni zamanda özlərinin və ətrafdakıların sərhədlərini müəyyən edirlər. Buna görə də kiçik yaşlı uşaqların gün boyu hansı əşyalara toxunduğu, nələrlə təmasda olduğu çox önəmlidir . Məktəb və bağçalarda plastik oyuncaqların olmasına qətiyyən icazə verilmir, bunun əvəzinə tam təbii maddələr- yun , pambıq, taxta parçaları istifadə edilir. Zərərli

maddələrlə təmas fiziki sağlamlığa zərərli olduğu üçün Waldorf yetirmələrinin digər uşaqlara nisbətən baş və mədə ağrılarından , həçinin digər fiziki narahatçılıqlardan daha az əziyyət çəkdikləri aparılan tədqiqatlarla sübut olunmuşdur. Uşaqlar gün boyu masa arxasında oturmağa məcbur edilmir və sərbəst hərəkət etmələrinə xüsusi diqqət yetirilir. Onlar daima istədikləri kimi hərərkət edirlər , fərqli məşğuliyyətləri olur.Bu cür sərbəst hərəkət kiçik yaşlı uşaqların fiziki inkişafına çox müsbət təsir göstərir. Məktəblərdə fərqli incəsənət sahələri ilə bağlı emalatxanalar var . Uşaqlar gün boyu burada şəkillər çəkir, müxtəlif fiqurlar hazırlayırlar. Şəkil çəkərkən tünd boyalar əvəzinə , daha az yağlı , təbii və yumuşaq boyalardan istifadə edilir. Uşaqlar tərəfindən çəkilmiş rəsm əsərləri onların psixikasını və inkiafının hər bir detayını özündə əks etdirdiyi üçün müəllimlərin xüsusi nəzarətində olur. Hərbir işdə əsas məsələ nəticə yox , o işi yerinə yetirərkən ortaya çıxan həzz duyğusu və həvəsdir.

Waldorf məktəb binalarınn dizaynı digər məktəblərdən seçilir, məktəbin böyük mətbəxi olur və uşaqlar öz yeməklərini müəllimlərində köməyi ilə özləri hazırlayaraq kiçik yaşlarından bir sıra sadə həyati bacarıqlara artıq yiyələnmiş olurlar. Bununla bərabər hər məktəbin mütləq böyük həyətyanı sahəsi, ağaclar,güllər və müxtəlif bitkilərlə zəngin bağçası olur. Hər 2 saat dərsdən sonra 30 dəqiqə ara verilir və uşaqlar təmiz hava qəbul edib dincəlirlər. Müəyyən qayda ilə isə hər dərs gününün 2 saatı bağçada , təbiətlə iç-içə keçməlidir. Uşaqlar təbiəti sevir, ona bağlanır , ruhi sakitlik tapır və təbiətdə mövcud olan hərşeyə toxunaraq onları tanıyıb kəşf edirlər. Hava şəraitinin necə olmasından asılı olmuyaraq bu rutinə hər gün əməl edilir. Waldorf müəllimləri qeyd edir ki, pis hava yox pis geyim vardır.

Uşaqlara mənəvi dəyərlərin aşılnmasına xüsusi diqqət edilir, daima əxlaqi mövzuda söhbətlər və müzakirələr olur. Bu təlim metodları uşaqların motivasiyasını artırır və onları öyrənməyə daha həvəsli edir.

**Waldorf kurikulumu**

Waldorf kurikulumunda tədris proqramı akademik fənlər üzrə 3-5 həftəlik bloklar şəklində təşkil olunur.Şagirdlər tədris materiallarından öyrəndikləri biliklər əsasında özləri dərsliklər hazırlayırlar, bu metod vasitəsilə şagirdlər mənimsənilmiş bilikləri möhkəmləndirir, eyni zamanda tətbiq edirlər. İbtidai tədris proqramlarında bir fənn dərindən , geniş və əhatəli formada öyrədilir. Bu yanaşma hər mövzuya bərabər vaxt ayıran digər tədris proqramlarından bir qədər fərqlənir. Əsas dərslər təşkil olunur ki, bu dərslərin müddəti 2 saatdır və fənn sadəcə bir kitabdan yox, mövzu ilə əlaqəli müxtəlif kitabdlardan , hərtərəfli formada tədris olunur, bununla yanaşı şagirdlər dərs boyu müxtəlif fəaliyyətlərlə məşğul olurlar. Digər məktəblərdən fərqli olaraq Waldorf orta məktəblərində fənn müəllimləri yox, fənn mütəxəssisləri dərsləri tədris edirlər , əsas dərs quruluşu isə dəyişməz qalır.

Waldorf kurikulumu; uşağın bütün fərdi xüsusiyyətlərini nəzərə alır, şəxsiyyətin inkişafının bütün ərhələlərini özündə birləşdirir, incəsənəti və elmi bilikləri inteqrasiya edir. Waldorf təhsilini bənzərsiz edən digər bir xüsusiyyət isə sinif müəlliminin dəyişməz qalnasıdır, bir müəllim 1-ci sinifdən 8-ci sinifə qədər eyni qrup uşaqlara rəhbərlik edir. Bu proses isə 'döngü'adlandırılır.

Waldorf kurikulumunda 'Hurried Child' məsələsinə xüsusi olaraq toxunulur və uşağın inkişafında tələskənliyin yolverilməz bir xəta olduğu bildirilir. Bu məsələyə bir Afrika atalar sözü (otları dartdiqda daha tez uzanmır) deviz olaraq götürülərərək yanaşılır və hərşeyi öz zamanında etmək lazım olduğu bildirilir

**Waldorf pedaqogikasının təməl qaydaları**

- Uşaqlar hər-hansı bir yarışın parçası deyil. Uşaqlar eyni formada və eyni ritmlə inkişaf etmir , onların hər birinə ayrı-ayrı yanaşmaq , fərdi ehtiyaclarını nəzərə almaq lazımdır. Unutmamalıyıq ki, hər şəxsiyyətin fərdi xarakterik və psixoloji xüsusiyyətləri var , buna görə də onlardan olmadıqları insan kimi davnranmaqlarını istəmək olmaz.

- Bir hekayə anlatıcısı olun . Nağıllar uşaqların hadisələr arasındakı əlaqələri dərk etməsini asanlaşdırır , söz bazalarını artırır . həmçinin təxəyyülü inkişaf etdirir və xəyal dünyalarını genişləndirir. Uşaqlarınıza nağıl danışaraq onlara özlərini fərqli xarakterlərin yerinə qoymaq , heç getmədikləri yerlərdə özlərini təsəvvür etmək imkanı yaradırsınız. “ Uşaqlarınızın ağıllı olmasını istəyirsinizsə onlara nağıl danışın, daha da ağıllı olmalarını istəyirsinizsə daha çox nağıl danışın. “ A.Enistein

- Təbiətlə hərgün əlaqəniz olsun. Övladlarınıza tələsmədən çiçəkləri qoxlamağı, ağacları, səmanı, buludları seyr etməkdən zövq almağı aşılayın. Bu onlara dünyanı və ətrafda olanlar daha dərindənı dərk etməyə kömək edəcək və onları sakit ruhlu insanlar olaraq yetişdirəcək.

- Uşaqlarınıza oyun oynamağı öyrədin. 'Söhbət telefon və kompyuterlərdəki oyunlardan getmir.' Uşaqlarınızın oyuncaqları nə qədər sadədirsə xəyal gücləri bir o qədər güclü olacaq.

- Rutinləriniz olsun. Hər gün eyni saatı müəyyən məşğuliyyətlərə ayırın. Bunlara mahnı oxumaq, rəsm çəkmək, rəqs etmək, idman hərəkətləti ilə məşğul olmaq, təbiətdə gəzinti, kinotetara getmək və s. misal göstərə bilərik.

- Həyatınızda sənətə və yaradıcılığa yer ayırın. Waldorf pedaqogikasının əsas məqsədlərindən biri də uşaqların müəyyən sahələrdə olan bacarıqlarını üzə çıxarmağa kömək etmək və onları bir sənət sahəsi ilə məşğul olmağa təşviq

etməkdir. Uşaqlarınıza planlaşdırılmamış hislər yaşaya biləcəyi anlar yaşadın.

Müəllimlər ancaq tarixi təcrübələr əsasında formalaşmış metodlardan istifadə etməməyə çağırılır. Waldorf pedaqogikasında bildirilir ki, təcrübə bizə bir şeyin necə olduğunu öyrətsə də, başqa cür ola biləcəyini öyrədə bilməz.

**Müzakirə**

Şəxsiyyət anlayışı mürəkəb anlayış olub insanın siması, identifikatorudur. Şəxsiyyət tarixin yaradıcısı, ictimai həyatın inkişaf etdirən, dəyişdirən kütlənin ayrılmaz vahididir, eyni zamanda o, şüurlu varlıqdır və həyatın bütün sahələrinə nüfuz edən ən ali varlıqdır. Bu gün müstəqil respublikamızın inkişafı ilk növbədə böyüyən nəslin təlim-tərbiyə işinin düzgün təşkil edilməsindən, vətəndaşlıq hazırlığı prosesindən asılıdır. Təlim -tərbiyənin əsas məqsədi isə kamil şəxsiyyət-insan-vətəndaş yetişdirməkdir . Vətəndaş tərbiyə etmək mənsub olduğu dövlətin inkişafı naminə çalışan, vətənin mənafeyini gözləyən, onun təhlükəsizliyi üçün məsuliyyət daşıyan həmçinin, dövlətin cari və perspektiv işlərində iştirak edən bir insan yetişdirmək deməkdir. Dövlətin və millətin tərəqqi yolu təhsildən , elmdən keçir. Cəmiyyət və təhsil qarşılıqlı vəhdət təşkil etdiyi üçün , təhsil cəmiyyətin sosial-iqtisadi və mənəvi tərəqqisində həlledici rol oynayır. Cəmiyyətimiz ictimai-iqtisadi, sosial-siyasi, elmi-texniki cəhətdən sürətlə inkişaf edir və təhsil sisteminin qarşısına yüksək tələblər qoyur. Təbii ki, təhsildə uğurlu inkişafa nail olmadan hər hansı bir dövlətin, xalqın real tərəqqisindən danışmaq mümkün deyil, cəmiyyətin və sosial-mədəni həyatın, intellektual, maddi-mənəvi inkişafında təhsilin və təlimin xüsusi əhəmiyyətə malik olması danılmaz bir faktdır.

Dövrümüzün əsas tələbi təhsil alana , şəxsiyyət kimi yanaşmaqla,onu cəmiyyətin əsas aparıcı qüvvəsinə çevirməyə nail olmaqdır. Bu gün dövlətimizdə milli və ümumbəşəri dəyərlər, demokratik, dünyəvi prinsiplər və beynəlxalq təhsil standartları əsasında islahatlar aparılmış, məzmun- mahiyyətcə milli dövlətçiliyimizə, ideologiyamıza və mentalitetimizə söykənən təhsil sistemi qurulmuşdur ki, bu da dövlət siyasətinin ən uğurlu addımlarından biridir. Modernləşdirmə prosesi isə təkcə elmi-texniki və texnoloji sferalarda baş vermir, eyni zamanda təfəkkürün məzmununda da davamlı modernizasiya prosesi gedir və bununla əlaqədar müasir təhsil sistemi, ilk növbədə, təlim keçən və tərbiyə edən şəxsiyyətin intellektualmədəni nüfuzuna əsaslanmalıdır. İctimai şüurun ən yeni məzmunu kimi təzahür edən bu cür təhsil sistemi, gənc nəslin sosial davranışında ,dünyagörüşündə nizamlı konstruksiya yaratmağa qadir olan sistem kimi formalaşmalıdır.

Müasir cəmiyyət qlobal miqyasda, sözün əsl mənasında centlmenin və sivil ledinin spesifik ruhuna əsaslanan tipik postmodern ictimai-siyasi və mədəni münasibətlər sisteminin yaradılmasını israrala tələb edir. Şagirdin bir şəxsiyyət kimi formalaşdırılması təhsilin humanistləşdirilməsi, demoktarikləşdirilməsi, humanitarlaşdırılması, eyni zamanda təlim prinsiplərinin inkişafetdirici və tərbiyəedici olması humanist pedaqogikanın tələblərindən irəli gəlir. Gənc nəslin elmin mütərəqqi dəyərləri ilə bəhrələnməsi təkcə idraki imkanların təkmilləşməsi və yeni biliklərin əldə edilməsi demək deyil. O, həm də insan varlığının mərifət kəsb etməsidir . Bununla əlaqədar olaraq təhsil sistemində başlıca diqqət təlim-tərbiyənin məzmununun daim modernləşdirilməsinə və humanistləşdirilməsinə yetirilir. Pozitiv şəxsiyyətin yüksək intellektual nüfuzuna və insani keyfiyyətlərinə əsaslanan bu təhsil sistemi yeni – mütərəqqi dəyərlərin daşıyıcısı olan, dünyanın elmi mənzərəsindən baş çıxaran, sosial-mədəni baxımdan daim fövqəladə şəkildə aktiv olan, çağdaş mədəniyyəti formalaşdırmağa və inkişaf etdirməyə qadir olan gənc şəxsiyyət formalaşdırır. Məhz bu cür müasir təlim və tərbiyə sistemi həqiqəti bütün dəyərlərdən üstün tutan, dünyanın durmadan gözəlləşdirilməsi və humanistləşdirilməsi naminə var gücünü və enerjisini sərf etməyə hazır olan, gələcək üçün daim məsuliyyət hiss etməyi bacaran yeni şəxsiyyəti yetişdirməyə qadirdir.

Qeyd etmək istərdim ki , bütün bu sadalananlara alternativ təhsil formalarından biri olan Waldorf pedaqogikasının özünəməxsus təlim-tərbiyə metodları əsasında fəaliyyət göstərən təhsil müəssisələri təşkil etməklə, həm təhsil sisteminə yeni bir yanaşma gətirmək, həm də sağlam bünövrəsi olan şəxsiyyət yetişdirməklə nail olmaq mümkündür.

## Nəticə

Sosial rəqabət dövründə yaşayırıq və günümüzdə öyrənmə sürəti deyilən bir anlayış mövcuddur. Uşaqların təlim-tərbiyəsində tələsmək yolverilməz bir xətadır. Cəmiyyətin və ətraf mühitin təsiri ilə bəzən valideynlər uşaqlarının hər bir işdə uğur qazanmasını və yaxşı nəticələr əldə etməsini istəyirlər , ancaq unutmaq olmaz ki, həyatda müvəffəqiyyət qazanmağın başqa tərəfləri də var. Uşaqlara hərşeydən öncə uşaqlığını yaşamaq imkanı vermək lazımdır. Belə qənaətə gəldim ki, Waldorf təhsili uşaqların istər potensial inkişafını, istərsə də davamlı inkişafını dəstəkləyir. Waldorf təhsili uşaqları hörmətlə qəbul edir, sevgi və qayğıyla tərbiyələndirir, azad yaşamalarına dəstək olur.

## Açıqlama

Məqalədə müəlliflər tərəfindən hər hansı maraq toqquşması ilə bağlı məlumat verilməyibdir.

## Ədəbiyyat və qeydlər:

Barbara J. Patterson, Pamela Bradley . Waldorf yöntemiyle çocuğumu büyütüyorum (0-7 yaş Çocuk eğitimi) 2011 İstanbul səh 153-159

Christopher Clouder and Martyn Rawson. (1998) Waldorf Education. səh 224-251.

Erken çocukluk eğitimde Waldorf yaklaşımı. Erzincan Üniversitesi Eğitim Fakültesi Dergisi. 2007, 15(2), səh 39-51.

Kəmalə Qəhrəmanova. Təhsilin əsasları. Bakı Universiteti,2012. səh 78-91

Jack Petrash. (2002) Understanding Waldorf Education: Teaching from the İnside Out.səh 50-78.

Rudolf Steiner ve Waldorf okulu. Yüzüncü Yıl Üniversite Eğitim Fakültesi Dergisi. 2001, 6(1), səh 174-194.

Doralice Lange De Souza – Learning and human development in Waldorf pedagogy and curriculum (2012 January)

Rudolf Steiner –The Kingdom of Childhood , 13 Avqust 1924, neü york Antroposophic Press 1995, səh 91-95

Discovering Waldorf : Discipline in a Waldorf School- The article in the Magic onions, April 5, 2012

Finser , Torin, School as a journey: The eight-year odyssey of a Waldorf teacher and his class

Joan Almon –An overview of the Waldorf Kindergarten (1993)

Waldorf Anaokulu Haber Bülteni'nden Makaleler, 1981-1992, 1.ci cilt, Pratik bir rehber

www.waldorfbooks.com

www.waldorfworld.net

Rudolf Steiner, Education and Modern Spritual Life, 6.seminar , 10 August, 1923, NY:Steinerbooks, 1989, s. 105-119

## SUMMARY

# Personality development in Waldorf pedagogy

**Kamala GAHRAMANOVA**
*Baku State University, Baku, Azerbaijan*

**Huryal KARAMOV**
*Baku State University, Baku, Azerbaijan*

Alternative forms of education have a long and unique history based on philosophical foundations. The main feature that distinguishes alternative forms from traditional forms is that the views of students and families are taken into account in the creation of the programmes.Waldorf pedagogy is one of these alternative forms of education. Waldorf pedagogy plans to raise a more talented, gifted personality, uses different teaching methods and appreciates the educational influence of nature on man.

The goal is to raise students who are fully prepared for the future, who understand the world more deeply, who have analytical thinking and logic, who have strong willpower and who have mastery of life skills. The main aim of Waldorf schools is to maximize the learning and application potential of children.

There is nothing they cannot do if enough attention is paid to this issue. Every teacher should consider the difference between skills and potential that is more evident in young children. Every child is born with natural abilities, it is necessary to see this potential and create the necessary conditions for its timely development.

***Keywords:*** Waldorf, creativity, free thought, harmony, freedom.

**РЕЗЮМЕ**

# Развитие личности в Вальдорфской педагогике

**Камаля ГАХРАМАНОВА**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

**Хурьял КАРАМОВА**
*Бакинский Государственный Университет, Баку, Азербайджан*

Альтернативные формы обучения уходят корнями в философские основы и имеют долгую и уникальную историю.Основная особенность, которая отличает альтернативные программы от традиционных форм, заключается в том, что при формировании программ учитывается мнение студентов и семей. Вальдорфская педагогика - одна из таких альтернативных форм обучения. Вальдорфская педагогика планирует воспитывать более способную и талантливую личность, использует различные методы обучения и ценит образовательное воздействие природы на человека. Цель состоит в том, чтобы подготовить студентов, полностью подготовленных к будущему, обладающих более глубоким пониманием мира, обладающих аналитическим мышлением и логикой, хорошо разбирающихся в жизненных навыках и обладающих сильной волей.

Основная цель Вальдорфских школ - максимизировать обучающий и прикладной потенциал детей. Если этому вопросу уделяется достаточно внимания, они ничего не могут сделать.Каждый учитель должен учитывать разницу между навыками и потенциалом, которая более выражена у маленьких детей. Каждый ребенок рождается с природными способностями, необходимо увидеть этот потенциал и создать необходимые условия для его своевременного развития.

***Ключевые слова:*** Вальдорф, творчество, свобода мысли, гармония, свобода.